# 20 sentyabr Dövlət Suverenliyi Günüdür!

37 (1394) 18-24 sentyabr 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN-BƏƏ MÜNASİBƏTLƏRİ BİRGƏ SƏYLƏR NƏTİCƏSİNDƏ İNKİŞAF ETDİRİLİR



Azərbaycanın ərəb dünyası ilə dərin tarixi-mədəni bağlılığı var. Ölkəmiz Ərəb Dövlətləri Liqasının üzvləri ilə həm ikitərəfli, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq edir. Ərəb Dövlətləri Liqasına daxil olan ölkələr Azərbaycanın da üzvü olduğu Qoşulmama Hərəkatının, həmçinin İslam Əməkdaşlıq Təşkilatının üzvləridir. Bu baxımdan Azərbaycanın ərəb dünyasının aparıcı ölkələrindən olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələri xüsusi əhəmiyyət daşıyır. 1992-ci ildə əsası qoyulan Azərbaycan-BƏƏ diplomatik münasibətləri ötən dövr ərzində böyük inkişaf yolu keçib. Qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan əlaqələrimiz hər zaman yüksək səviyyəsi, dialoq mühitində inkişaf tempi ilə diqqət çəkib.

## "BƏƏ İLƏ ƏLAQƏLƏRİMİZ QARDAŞLIQ, DOSTLUQ ÜZƏRİNDƏ QURULUB"

"Bizim əlaqələrimiz (Birləşmiş Ərəb Əmirlikləri – red.) qardaşlıq, dostluq üzərində qurulub. Bu gün imzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq".

Bu sözləri Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşündə deyib.

İmzalanmış hər bir sənədin böyük əhəmiyyət daşıdığını vurğulayan dövlətimizin başçısı bildirib: ***"Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir".***




## "BƏƏ İLƏ SİYASİ ƏLAQƏLƏRİMİZ ÇOX UĞURLA İNKİŞAF EDİR"

"Bizim siyasi əlaqələrimiz çox uğurla inkişaf edir.

Biz hər zaman beynəlxalq təşkilatlarda bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik".

Bu fikirləri Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşündə səsləndirib.

"Son vaxtlar qarşılıqlı sərmayə qoyuluşu bizi çox şad edir. Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Bu gün imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir", - deyə dövlətimizin başçısı əlavə edib.

## "SON BEŞ İLİN TARİXİ ZƏFƏR TARİXİDİR, ŞANLI TARİXİMİZDİR"

Bu sözləri Prezident İlham Əliyev Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə söyləyib. **"Şadam ki, siz artıq öz doğma dədə-baba torpağınıza gəlmisiniz, yerləşmisiniz. Sizin üçün burada şərait yaradılıb, evlər tikilib, təmir edilib. Bütün şərait var - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar. Ən önəmlisi bura doğma Qarabağ diyarıdır"**, - deyə dövlətimizin başçısı əlavə edib.

## "BİZ BÜTÜN DÜNYAYA SÜBUT ETMİŞİK Kİ, GÜCLÜ XALQIQ, İRADƏLİ XALQIQ"

"Biz bütün dünyaya sübut etmişik ki, güclü xalqıq, iradəli xalqıq, döyüş meydanında da qələbə qazanmışıq, sülhə də hər zaman hazır idik. Amma sülh ədalətli sülh olmalı idi, beynəlxalq hüquq və tarixi ədalət üzərində sülh olmalı idi".

Bu fikirləri Prezident İlham Əliyev Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə səsləndirib.

Dövlətimizin başçısı əlavə edib: ***"Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi".***

## AZƏRBAYCAN FUTBOLUNUN TARİXİ ZƏFƏRİ

*Azərbaycan Prezidenti İlham Əliyev "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.*

**Paylaşımı təqdim edirik:**

"Qitənin ən nüfuzlu klub turnirində - Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması münasibətilə Ağdamın "Qarabağ" futbol klubunu ürəkdən təbrik edirəm. Bu, Azərbaycan futbolunun, Azərbaycan idmanının tarixi zəfəridir.

"Qarabağ"ın Avropanın köklü klublarından biri olan "Benfika" ilə səfər matçında oyunun gedişində möhtəşəm geridönüş edərək parlaq qələbə çalması onun məğlubedilməz ruhunu, mübarizə əzmini göstərir.

Bu qələbə ilə doğma komandamız Azərbaycan xalqına böyük sevinc bəxş etmişdir. Hər bir azərbaycanlı Avropada xariqələr yaradan "Qarabağ"la qürur duyur. ABŞ Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunu 40%-ə yaxın artırıb

Bu ilin ilk 6 ayında Amerika Birləşmiş Ştatlarından (ABŞ) Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici



investisiyaların həcmi 89,493 milyon ABŞ dolları təşkil edib. Bu barədə Azərbaycan Mərkəzi Bankından bildirilib.

Məlumata əsasən, bu, ötən ilin eyni dövründəki göstərici ilə müqayisədə 25,452 milyon ABŞ dolları və ya 39,7% çoxdur.

Hesabat ilində Azərbaycana birbaşa xarici investisiyaların ümumi həcmində ABŞ-dan yatırılan investisiyaların payı 2,8% təşkil edib.

Öz növbəsində, Azərbaycan cari ilin ilk 6 ayında ABŞ iqtisadiyyatına 77,621 milyon ABŞ dolları sərmayə qoyub ki, bu da ötən ilin eyni dövründəki göstərici ilə müqayisədə 57,960 milyon ABŞ dolları və ya 3,9 dəfə çoxdur.

Birbaşa xarici investisiyaların ümumi həcmində ABŞ-yə yatırılan Azərbaycan investisiyalarının xüsusi çəkisi 5,8% təşkil edib. Bununla da ABŞ Azərbaycanın ən çox investisiya yatırımı etdiyi ölkələr sırasında 4-cü pillədə qərarlaşıb.

Xatırladaq ki, 2024-cü ilin ilk 6 ayında Amerika Birləşmiş Ştatlarından Azərbaycana birbaşa xarici investisiyaların həcmi 64,041 milyon ABŞ dolları, Azərbaycandan sözügedən ölkəyə yatırılan investisiyaların həcmi isə 19,661 milyon ABŞ dollarına bərabər olub.

Qeyd edək ki, 2025-ci ilin ilk 6 ayında Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 3,222 milyard ABŞ dollarından çox olub. Bu isə 2024-cü ilin eyni dövründəki göstəriciyə nisbətən 244,295 milyon ABŞ dolları və ya 8,2% artım deməkdir.

Eyni zamanda hesabat dövrü ərzində Azərbaycandan xarici iqtisadiyyata yönəldilmiş birbaşa xarici investisiyaların həcmi isə 1,350 milyard ABŞ dolları olub ki, bu da 2024-cü ilin ilk 6 ayındakı göstərici ilə müqayisədə 351,561 milyon ABŞ dolları və ya 35,2% çoxdur.

Komandamıza Çempionlar Liqasının növbəti oyunlarında uğurlar və yeni-yeni zəfərlər arzu edirəm".

## "DOST AZƏRBAYCANLA İKİTƏRƏFLİ ƏLAQƏLƏRİMİZİ DAHA YÜKSƏK SƏVİYYƏYƏ QALDIRMAĞI ARZULAYIRIQ"



"Dost ölkənizlə ikitərəfli əlaqələrimizi gücləndirmək və genişləndirmək üçün xüsusi və böyük marağımız var, onu daha yüksək səviyyəyə qaldırmağı arzulayırıq".

Bu sözləri Prezident İlham Əliyevlə geniş tərkibdə görüşdə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan söyləyib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti qeyd edib: ***"Biz hər iki tərəfə fayda gətirəcək və davamlı inkişafa töhfə verəcək yeni əməkdaşlıq fürsətlərinin daim axtarışındayıq".***

**16 sentyabr 2025-ci il**

Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə təkbətək və geniş tərkibdə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin erməni işğalçıları tərəfindən güllələnmiş heykəllərinə baxıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Milli Xalça Muzeyinin Şuşa filialında olublar, Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar, Cıdır düzündə Qarabağ atlarının şousunu izləyiblər.

# Qarabağ Universitetində Tibb və sağlamlıq elmləri fakültəsi fəaliyyətə başlayacaq




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib.

Bildirilib ki, yeni tədris ilindən Qarabağ Universitetində Tibb və sağlamlıq elmləri fakültəsi fəaliyyətə başlayacaq. Fakültənin tədris korpusu müasir tələblərə cavab verən avadanlıqla təchiz edilib. Burada mikrobiologiya, histologiya laboratoriyaları, hüceyrə yetişdirmə və digər inzibati otaqlar fəaliyyət göstərəcək. Dövlətimizin başçısı Qarabağ Universitetinin Klinikasının binasında yaradılmış şəraitlə tanış olub. Klinika Prezident İlham Əliyevin bu ilin fevralında imzaladığı Fərmana əsasən yaradılıb.

Qarabağ Universitetində Klinikanın yaradılması, həmçinin Tibb və sağlamlıq elmləri fakültəsinin fəaliyyətə başlaması yeni dövrün çağırışlarına uyğun peşəkar tibb mütəxəssislərinin hazırlanması istiqamətində atılmış mühüm addımlardan biridir. Digər tərəfdən, klinikada həyata keçiriləcək elmi tədqiqatlar Qarabağ Universitetinin akademik nüfuzunun və beynəlxalq reytinqinin artmasına, eləcə də ölkəmizdə tibb elminin inkişafına öz töhfəsini verəcək. Bütün bunlar, eyni zamanda, xarici tələbələrin də bu ali təhsil ocağına marağını artıracaq.

# "Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur"

"Biz beş il ərzində şəhərlər, kəndlər, körpülər, tunellər, su anbarları, elektrik stansiyaları qurmuşuq".

Bu barədə Prezident İlham Əliyev Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə bildirib.

***"Yəni, burada – Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Əsas odur ki, Azərbaycan xalqı rahat yaşasın, xoşbəxt yaşasın, sülh içində yaşasın"***, - deyə dövlətimizin başçısı vurğulayıb.

# Auditorlar Palatasının nümayəndə heyəti Litvada keçirilən beynəlxalq konfransda iştirak edib




Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzovun rəhbərlik etdiyi nümayəndə heyəti Litva Auditorlar Palatası tərəfindən Litvanın paytaxtı Vilnüs şəhərində keçirilmiş qurumun fəaliyyətə başlamasının 25 illik yubileyinə və Litvada müstəqil auditor peşəsinin bərqərar olmasının 30 illik yubileyinə həsr edilmiş "30 illik etimad: Litva Auditorlar Palatasının keçdiyi yol və gələcək dövrün çağırışları" mövzusunda beynəlxalq konfransda iştirak edib.

Auditorlar Palatasından bildirilib ki, tədbirdə Litva prezidentinin nümayəndəsi, maliyyə naziri, Daxili İşlər Nazirliyi yanında Maliyyə Cinayətlərinin İstintaq Xidmətinin və digər müvafiq nazirliklərin rəhbərləri, Hesablama Palatasının sədri, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) və Avropa Mühasibləri Təşkilatının Baş icraçı direktorları, İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyasının (ACCA) Şimali və Şərqi Avropa üzrə regional rəhbəri, Litva Auditorlar Palatasının prezidenti və sabiq prezidentləri, habelə Estoniya, İrlandiya və Latviyanın audit və mühasibatlıq qurumlarının nümayəndələri tərəfindən aktual mövzularında məruzələr dinlənilib.

Beynəlxalq konfransda Auditorlar Palatasının sədri Vahid Novruzov tədbirin təşkilatçılarına dəvətə görə minnətdarlığını bildirib, Litva Auditorlar Palatasının prezidentini və əməkdaşlarını yubiley münasibətilə səmimi qəlbdən təbrik edərək gələcək fəaliyyətində uğurlar arzu edib. V. Novruzov "Azərbaycanda auditə gələcək baxış" mövzusunda məruzə ilə çıxış edərək Azərbaycanda audit qanunvericiliyinin əsasları, Prezident İlham Əliyev tərəfindən dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat şəraitində həyata keçirilən uğurlu islahatlar, dayanıqlı inkişafa dair hesabatlılığın təmin edilməsində auditin üzərinə düşən vəzifələr, gənclər arasında auditor peşəsinə marağın artırılması, onların bu peşəyə daha geniş cəlb edilməsi məqsədilə Auditorlar Palatası tərəfindən həyata keçirilən tədbirlərdən bəhs edib.

# "Uzun illər köçkün həyatı yaşamış insanlar ən gözəl şəraitə layiqdirlər"

"Uzun illər köçkün həyatı yaşamış insanlar ən gözəl şəraitə layiqdirlər".

Bu barədə Prezident İlham Əliyev Xocalı rayonunun Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşündə bildirib.

Dövlətimizin başçısı qeyd edib: ***"Mən xatırlayıram, o vaxt işğal dövründə köçkünlərlə çoxsaylı görüşlərimdə deyirdim ki, sizin üçün dövlət şərait yaratmağa çalışır və biz bunu etmişdik. Təqribən 300 minə yaxın keçmiş köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilmişdi"***.

**14-15 sentyabr 2025-ci il**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoyub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsində inşa olunmuş məscidin açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşüb.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı rayonunun Şuşakənd və Seyidbəyli kəndlərində olub.

* * * *

İlham Əliyev Qarabağ Universitetinin Klinikası binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşüb.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Maliki və Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Selçuk Bayraktaroğlunu qəbul edib.

# Azərbaycanla BƏƏ arasında ticarət dövriyyəsi 76% artıb



Bu ilin yanvar-avqust aylarında Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında ticarət əməliyyatlarının həcmi 104,6 milyon ABŞ dolları təşkil edib.

Bu barədə Trend Dövlət Gömrük Komitəsindən məlumat əldə edib.

Məlumata görə, bu, 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 45,2 milyon ABŞ dolları və ya 76,1% çoxdur.

Hesabat dövründə BƏƏ ilə ticarət əməliyyatları Azərbaycanın ümumi ticarət dövriyyəsinin 0,33%-i həcmində olub.

Cari ilin yanvar-avqust aylarında Azərbaycandan BƏƏ-yə 73,4 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 39 milyon ABŞ dolları və ya 2,1 dəfə çoxdur.

Eyni zamanda, 2025-ci ilin yanvar-avqust aylarında BƏƏ-dən Azərbaycana 31,2 milyon ABŞ dolları dəyərində idxal əməliyyatları icra olunub ki, bu da illik müqayisədə 6,2 milyon ABŞ dolları və ya 25% artım deməkdir. Bundan başqa, hesabat dövründə Azərbaycandan Birləşmiş Ərəb Əmirliklərinə 71,7 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edilib ki, bu da ötən ilin ilk 8 ayındakı göstəriciyə nisbətən 39 milyon ABŞ dolları və ya 2,2 dəfə artım deməkdir.

Azərbaycandan BƏƏ-yə qeyri-neft məhsullarının ixracı ölkənin ümumi ixracında 2,99% paya malik olub.

# Azərbaycanın xalis maliyyə aktivləri 3 milyard dollar artıb




Bu ilin 6 ayı üzrə ölkənin xalis maliyyə aktivləri 3.0 milyard dollar artıb. Bu barədə Mərkəzi Bankdan bildirilib.

Məlumatda deyilir ki, bu göstərici xaricə yönəldilmiş birbaşa investisiyalar (0.5 milyard dollar), portfel investisiyaları (1.0 milyard dollar) və digər investisiyalar (1.5 milyard dollar) hesabına formalaşıb.

Qeyd edilib ki, hesabat dövründə ölkənin xalis maliyyə öhdəlikləri isə 230.0 milyon dollar artıb ki, bu da xaricdən cəlb olunmuş birbaşa investisiyalar (-195.8 milyon dollar), neft bonusu (450.2 milyon dollar), portfel investisiyaları (-24.9 milyon dollar) və digər investisiyalar (0.5 milyon doar) hesabına formalaşıb.

# BMK Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunu 1,2 milyon dollar artırıb

Bu ilin ilk 6 ayında Beynəlxalq Maliyyə Korporasiyası (BMK) Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyaların həcmi 2,851 milyon ABŞ dolları təşkil edib.

Bu barədə Azərbaycan Mərkəzi Bankından bildirilib.

Məlumata əsasən, bu, ötən ilin eyni dövründəki göstərici ilə müqayisədə 1,242 milyon ABŞ dolları və ya 77,2% çoxdur.

Hesabat ilində Azərbaycana birbaşa xarici investisiyaların ümumi həcmində Beynəlxalq Maliyyə Korporasiyasından yatırılan investisiyaların payı 0,1% təşkil edib.

Xatırladaq ki, 2024-cü ilin ilk 6 ayında Beynəlxalq Maliyyə Korporasiyasından Azərbaycana birbaşa xarici investisiyaların həcmi 1,609 milyon ABŞ dollarına bərabər olub.

Qeyd edək ki, 2025-ci ilin ilk 6 ayında Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 3,222 milyard ABŞ dollarından çox olub. Bu isə 2024-cü ilin eyni dövründəki göstəriciyə nisbətən 244,295 milyon ABŞ dolları və ya 8,2% artım deməkdir.

Eyni zamanda hesabat dövrü ərzində Azərbaycandan xarici iqtisadiyyata yönəldilmiş birbaşa xarici investisiyaların həcmi isə 1,350 milyard ABŞ dolları olub ki, bu da 2024-cü ilin ilk 6 ayındakı göstərici ilə müqayisədə 351,561 milyon ABŞ dolları və ya 35,2% çoxdur.

# 20 sentyabr - Dövlət Suverenliyi Günüdür

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilmədi. Azərbaycan 1991-ci ildə müstəqilliyini elan etməklə dövlət suverenliyini bərpa etdi, çünki suverenlik hakimiyyətin ali xüsusiyyətini ifadə edir, sovetlər dövründə isə hakimiyyət ali xüsusiyyətdən məhrum idi. Suverenlik dövlətin mövcudluğunun hüquqi əsası və onun beynəlxalq hüququn subyektinə çevrilməsinin başlıca şərti kimi çıxış edir. Başqa cür desək, dövləti təşkil edən ərazi, əhali və siyasi hakimiyyət kimi obyektiv amillər hüquqi müstəvidə nəzərə alınır. Lakin bu atributları özündə ehtiva edən hər-hansı siyasi varlığın dövlət qurması üçün mütləq şəkildə suverenlik xüsusiyyətinə malik olması qaçılmaz şərtdir. Suverenlik dövlətin mövcudluğunun və institusional davamlılığının əsas şərti kimi çıxış edir.



*"Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir."*

*"Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından çıxarış (19.09.2024)*

*"Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi."*

*Prezident İlham Əliyev Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşündə çıxışından (20.09.2024)*

**Dövlət Suverenliyi Günü - Azərbaycanın mövcudluğunun və institusional davamlılığının əsasıdır**

Özünün siyasi, mədəni taleyini, taleyinə sahib çıxmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək hər xalqa nəsib olmur. Buna sahib olmaq xalqın ictimai-siyasi həyatında ən böyük nailiyyətidir. Tarix boyunca qarşılaşdığı iqtisadi, siyasi, hərbi çətinliklərə, işğala baxmayaraq, xalqımızın müstəqillik, dövlətçilik arzusu və mübarizəsi əsrlər boyu davam edib, heç bir qüvvə onun bu əzmini sındıra bilməyib;

**Suveren dövlət**

Suverenlik dövlətin əsas xüsusiyyəti hesab edilmiş və dövlətin üstün və qeyri-məhdud səlahiyyətə malik olduğu güman edilmişdir.

Suveren dövlət – beynəlxalq hüquqda ali hakimiyyəti təmsil edən, öz dövlətinin daxili və xarici siyasətində tamamilə müstəqil olan, başqa dövlətin hakimiyyətindən asılı olmayan və hansısa bir coğrafi ərazidə suverenliyi olan dövlət deməkdir. Beynəlxalq hüquq suveren dövlətləri daimi əhaliyə sahib olmaqla, müəyyən bir ərazisi olmaqla, ali və tək hökuməti olmaqla və digər suveren dövlətlərlə münasibət qurmağa gücü olmaqla xarakterizə edir. Həmçinin, suveren dövlət başqa bir dövlətdən nə asılı, nə də tabe olmamalıdır;

***30 ildən çox davam edən işğal***

Beynəlxalq hüququn normalarını, BMT nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycana qarşı təcavüzkar siyasət həyata keçirən Ermənistan hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 ildən çox işğal altında saxladı, azərbaycanlılara qarşı etnik təmizləmə apardı, törətdiyi hərbi cinayətlərlə şəhər və kəndlərimizi viran, ölkəmizin təbii resurslarını talan etdi, tarixi, dini, mədəni abidələrini dağıtdı, Azərbaycan xalqına qarşı Xocalı soyqırımı törətdi.

Bütün bu problemlərə baxmayaraq bu ərazilər suveren Azərbaycan ərazisi olaraq tanınırdı.

Ermənistanın hərbi təcavüz və işğalının nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar uğursuzluqla nəticələndi;



**II Qarabağ müharibəsində əldə olunmuş Zəfər**

2018-ci ildə dəyişən Ermənistan hökuməti münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində addım atmadı, Azərbaycanın və vasitəçilərin bütün sülh təkliflərini rədd etdi, həll yoluna sıfırdan başlayacağını bildirdi. Yeni hakimiyyət özündən əvvəlki hakimiyyətlər kimi müzakirələri uzatmaq taktikasına üstünlük verdi. Təbii ki, Azərbaycan buna laqeyd qala bilməzdi.

Ermənistanın 2020-ci il sentyabrın 27-də başladığı II Qarabağ müharibəsində iddiaları böyük idi. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına Azərbaycanın verdiyi cavab nəticəsində 44 gün davam edən müharibədə Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etdi və tarixi Zəfər qazandı. Müharibə nəticəsində işğal altındakı ərazilərinin böyük bir hissəsi azad edildi, Kəlbəcər, Ağdam və Laçın rayonlarında yerləşən Ermənistan silahlı qüvvələri isə həmin ilin sonuna qədər ərazidən çəkildilər. Bununla da torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi;

**Laçın nəzarət-buraxılış məntəqəsinin yaradılması**

44 günlük müharibədə məğlub olan Ermənistan və qondarma Dağlıq Qarabağ rəhbərliyi heç bir vəchlə sülh müzakirələrinə başlamaq istəmədilər, konstruktiv davranmadılar. BMT-yə üzv olan heç bir dövlət tərəfindən müstəqilliyi tanınmayan qondarma rejimin Qarabağda fəaliyyətini davam etdirməsi qeyri-qanuni və əlbəttə ki, suveren dövlət daxilində qəbuledilməz idi.

Tərəflər arasında imzalanan 9 noyabr sənədinə əsasən, Ermənistan və qondarma Dağlıq Qarabağ arasında əlaqəni Azərbaycan ərazisindən – Laçın üzərindən qurmalı idi. Ermənistan və qondarma Dağlıq Qarabağ rəhbərliyi bu yoldan sosial problemlərini həll etməkdənsə, Ermənistandan qondarma Qarabağa silah və sursat daşımağa üstünlük verdilər. Ermənilər mütəmadi olaraq atəşkəsi pozur, təhlükəsizliyi ciddi şəkildə təhdid edirdilər. Azərbaycan dövlətinin səbrini sınayan qondarma Dağlıq Qarabağ rejimi militarist bəyanatlarına ara vermədi.

Azərbaycan hökuməti qətiyyətli addım ataraq, peşəkarlıqla həyata keçirilən əməliyyat nəticəsində 2023-cü il aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayının üzərində Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratdı. Bu, hakimiyyətin aliliyinin və nəzarət funksiyasının yerinə yetirilməsinin təmin edilməsi istiqamətində atılan ən ciddi addım idi. Bu, Azərbaycanın II Qarabağ müharibəsindən sonra bir güllə belə atmadan əldə etdiyi növbəti tarixi nailiyyət oldu. Buraxılış məntəqəsinin qurulması ilə Azərbaycan beynəlxalq aləm tərəfindən tanınmış bütün sərhədləri boyunca suveren hakimiyyətini və nəzarətini, başqa cür desək, ərazi bütövlüyünü təmin etdi;

**2023-cü ilin antiterror əməliyyatı**

Sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror tədbirlərinə başlandı. Cəmi 23 saat 43 dəqiqə davam edən əməliyyat nəticəsində müzəffər Azərbaycan Ordusu qarşısındakı bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Qondarma dağlıq Qarabağ rejimi özünü buraxdığını elan etdi. Bununla da Azərbaycanın bütün əraziləri üzərində suverenliyini tam bərpa etdi. Hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olundu. Bu, Azərbaycanın dövlət suverenliyinin təşəkkülündə mühüm bir mərhələ hesab edilir;

**"Dövlət Suverenliyi Günü"nün təsis edilməsi**

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə hər il sentyabrın 20-də qeyd olunacaq unudulmaz tarix - Dövlət Suverenliyi Günü təsis edilib (https://e-qanun.az/framework/57986). Bu Sərəncam Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpası ilə başlayan hadisələrin kulminasiya nöqtəsi olan ərazi bütövlüyü və müstəqillik uğrunda onilliklər boyu davam edən mübarizənin rəmzi sonunu əks etdirir. Bu yeni tarixin təqvimdə rəsmi yer alması 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin, 2023-cü ildə antiterror tədbirlərinin və XXI əsrdə ölkənin müstəqilliyinin möhkəmləndirilməsinin əhəmiyyətini bir daha vurğulayır;

**2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilmişdir**

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" 2024-cü il 28 dekabr tarixli Sərəncam imzalamış (https://e-qanun.az/framework/58622) və 2025-ci il 11 fevral tarixində müvafiq Tədbirlər Planını təsdiq etmişdir (https://e-qanun.az/framework/58962).

"Konstitusiya və Suverenlik İli" elan olunması xüsusilə müasir Azərbaycanın dövlətçilik tarixində olduqca əhəmiyyətlidir və xüsusi yeri var. Suverenlik dövlətlərin varlığını, həyat qabiliyyətini dünyaya nümayiş etdirən ən başlıca və zəruri amillərdən biridir. Çünki digər dövlətlər və beynəlxalq təşkilatlar suverenliyini təmin edən dövlətlərlə əməkdaşlıq edir, onu tanıyır, əlaqələr qurur, ərazi bütövlüyünə hörmətlə yanaşır. Konstitusiya və Suverenlik anlayışları isə dövlətlərin hüquqi və siyasi əsasları ilə yanaşı, onların milli kimliyini də aydın şəkildə təsdiq və ifadə edir, onları dünyaya yaxından tanıdırır.

Bu gün Azərbaycan xalqı bütün sahələrdə yeni inkişaf tarixinə qədəm qoyub. Artıq dövlət suverenliyimiz tam, ərazilərimiz bütöv, sərhədlərimiz isə toxunulmazdır. Mövcud daxili sabitliyin möhkəmlənməsinə və iqtisadi yüksəlişin daha da sürətlənməsinə əlavə stimul verəcək tam suverenlik şəraitində bu pozitiv dinamikanı qoruyub saxlamaq, uğur və nailiyyətləri artırmaq xalqımızın və dövlətimizin qarşısında duran prioritet vəzifədir.

# ARDNF büdcəyə olan transfertləri 6-12 faiz azaldacaq

2026-cı ildə dövlət büdcəsi gəlirlərinin 12 milyard 750 milyon manat və ya 33,2 faizinin Azərbaycan Respublikasının Dövlət Neft Fondundan (ARDNF) olan transfertlərin payına düşəcəyi proqnozlaşdırılır. AZƏRTAC Maliyyə Nazirliyinə istinadən xəbər verir ki, ARDNF-nin dövlət büdcəsinə transferti cari il üzrə 14 milyard 481 milyon manat təsdiq olunub. Bu göstərici 2026-cı il üzrə 12 milyard 750 milyon manat (cari ildən 12 faiz az), 2027-ci il üzrə 11 milyard 900 milyon manat (əvvəlki ildən 6,67 faiz az), 2028-ci il üzrə 11 milyard 50 milyon manat (əvvəlki ildən 7,14 faiz az), 2029-cu il üzrə isə 10 milyard 200 milyon manat (əvvəlki ildən 7,69 faiz az) proqnozlaşdırılıb.

# Növbəti 4 ildə Azərbaycanda əhalinin gəlirləri və xərcləri artacaq

2026-cı ildə Azərbaycanda əhalinin gəlirlərinin 97,4 milyard manat olacağı proqnozlaşdırılır.

AZƏRTAC Maliyyə Nazirliyinə istinadla xəbər verir ki, 2027-ci ildə əhalinin gəlirlərinin 105,3 milyard manata, 2028-ci ildə 113,4 milyard manata çatacağı gözlənilir.

Proqnozlara əsasən, ortamüddətli dövrdə əhalinin gəlirləri artaraq 2029-cu ildə 123,2 milyard manata, xərcləri isə 120,6 milyard manata qədər yüksələcək.

Gələn il üçün əhalinin xərcləri 95,5 milyard manat, 2027-ci ildə 103,3 milyard manat, 2028-ci ildə 111,2 milyard manat təşkil edəcək.

# İdxal həcminə görə Azərbaycanın aparıcı tərəfdaşlarının beşliyi açıqlandı

2025-ci ilin yanvar-avqust aylarında Azərbaycan aparıcı ticarət tərəfdaşları ilə fəal əməkdaşlığı davam etdirib, beş ölkədən idxal həcmini artırıb, bu sırada lider mövqedə Çindir - səkkiz ay ərzində bu ölkədən təxminən 2,88 milyard dollar dəyərində mal idxal olunub.

Trend-in Dövlət Gömrük Komitəsinə istinadən verdiyi məlumata görə, idxal həcminə görə ikinci yerdə 2,53 milyard dollar göstərici ilə Rusiya qərarlaşıb.

Türkiyə 1,55 milyard dollar dəyərində mal ixrac etməklə üçüncü yerdədir. Dördüncü yeri ABŞ tutur - 754 milyon dollar həcmində mal idxal olunub. Beşinci pillədə isə Azərbaycana 688 milyon dollar dəyərində mal ixrac etmiş Böyük Britaniya qərarlaşıb. Ötən ilin eyni dövrü ilə müqayisədə bu ölkələrin hamısından idxal artıb. Belə ki, Çindən idxal 603,4 milyon dollar artaraq 26,5% yüksəlib. Rusiya ixracı 347,1 milyon dollar (15,9%), Türkiyə isə 46,8 milyon dollar (3%) artırıb. ABŞ və Böyük Britaniya da əhəmiyyətli artım nümayiş etdiriblər – müvafiq olaraq 101 milyon və 510,2 milyon dollar. Xüsusilə Böyük Britaniyadan idxal nəzərəçarpacaq dərəcədə artaraq ötən illə müqayisədə təxminən dörd dəfə yüksəlib.

Qeyd edək ki, Azərbaycan Dövlət Gömrük Komitəsinin hesablamalarına əsasən, cari ilin yanvar-avqust aylarında Azərbaycan 173 ölkə ilə 32,118 milyard ABŞ dolları məbləğində ticarət əməliyyatları həyata keçirib.

Ticarət dövriyyəsi ixrac üzrə 15,2 milyard ABŞ dolları, idxal üzrə isə 13,6 milyard ABŞ dolları təşkil edib. Beləliklə, illik ifadədə ixrac 5,4% azalıb, idxal isə 26,1% artıb. Nəticədə xarici ticarət üzrə 1,6 milyard dollar həcmində müsbət saldo formalaşıb ki, bu da ötən illə müqayisədə 3,3 dəfə azdır.



# Эксперты бьют тревогу: воды в Азербайджане становится все меньше

Последнее время вопросы рационального использования водных ресурсов приобретает огромное значение. Эта проблема имеет особую важность для Азербайджана, который по сравнению с многими регионами Земного шара располагает относительно меньшими водными ресурсами. Поэтому, рациональное использование водных ресурсов для нашей страны приобретает исключительно важное значение. Этот вопрос часто становится предметом особого обсуждения.

Лето в Азербайджане вновь прошло под знаком водного кризиса. Во многих районах Баку жители оставались без воды по несколько дней. В селах и регионах нехватка воды вызвала недовольство. Из-за проблем с орошением засохли гектары посевов, урожайность резко снизилась, сотни фермеров понесли убытки.

Не принесла облегчений и осень: несмотря на выпавшие дожди, специалисты не дают оптимистичных прогнозов. Малые реки, озера и родники постепенно пересыхают, водные ресурсы страны сокращаются год от года.

Как сообщает haqqin.az, проблема дефицита воды и ее связь с изменением климата стала центральной темой прошедшей в Баку Второй международной выставки и конференции по водному хозяйству.

Мухтар Бабаев, специальный представитель президента Азербайджана по вопросам климата, подчеркнул, что из-за неравномерного распределения осадков и таяния ледников в горах запасы воды стремительно истощаются.

«Наши водные ресурсы сокращаются с каждым годом, - отметил Бабаев. - Это процесс глобального масштаба. Основная




причина — изменение климата и нестабильный характер осадков».

По его словам, мир уже разделился на государства с обильным доступом к воде и страны, испытывающие ее дефицит. Азербайджан, к сожалению, входит во вторую категорию. Согласно исследованию Института мировых ресурсов, по риску дефицита воды к 2050 году Азербайджан занял 59-е место среди 164 государств мира и классифицирован как «территория со средне-высоким уровнем угрозы». В Национальном докладе Азербайджана по Рамочной конвенции ООН об изменении климата прогнозируется сокращение водных ресурсов к 2040 году на 5–10 процентов, а по другому сценарию — на 10–15 процентов.

Профессор Института географии Национальной академии наук Азербайджана Рза Махмудов в комментарии для haqqin.az напомнил, что сегодня 33 страны мира испытывают дефицит воды, и Азербайджан в их числе.

«Наши ресурсы изначально ограничены, - подчеркнул ученый. - Их объем оценивается примерно в 30,6 кубических километра. В засушливые и влажные годы эта цифра меняется. Но фактически возобновляемые пресные воды составляют 26,2 миллиарда кубометров. По сравнению с другими странами Южного Кавказа, Азербайджан располагает лишь 15 процентами региональных запасов».

За последние годы, подчеркнул Махмудов, резко сократился поток Куры и Араза, пересыхают внутренние реки и озера, та же ситуация наблюдается на реках Карабаха. Исследования с использованием спутниковых данных и климатических моделей показали, что существовавшие до 1990 года ресурсы Карабаха значительно уменьшились. Кроме того, с 2006 года уровень Каспийского моря ежегодно снижается на 11 сантиметров.

В ответ на вызовы реализуется Национальная стратегия по эффективному использованию водных ресурсов. Документ предусматривает 16-летний план: расширение применения современных методов орошения до 10 процентов к 2027 году, обеспечение 85 процентов населения питьевой водой и 90 процентов водой для сельхозугодий, развитие альтернативных источников, а также сокращение потерь воды в системах водоснабжения и орошения.

Эксперт по водным вопросам Ровшан Аббасов отметил, что ресурсы снижаются не только количественно, но и качественно.

«Если раньше в Азербайджане было 30 кубических километров воды, то сегодня этот показатель упал ниже 20, и более 70 процентов воды поступает извне. Засушливое лето усугубляет проблему: реки мелеют, родники пересыхают, наблюдается минимальный поток», — сказал он.

По словам Аббасова, климатические изменения делают этот процесс куда более выраженным, чем прежде.

Таким образом, дефицит воды в Азербайджане из локальной проблемы превращается в системный вызов, затрагивающий продовольственную безопасность, экономику и социальную стабильность нашей страны.

**Источник: haqqin.az**

# SOFAZ расширяет сотрудничество с японскими финансовыми институтами

Состоялся деловой визит делегации Государственного нефтяного фонда Азербайджанской Республики (SOFAZ) в Японию под руководством исполнительного директора Исрафила Мамедова.

Об этом сообщает во вторник Trend со ссылкой на SOFAZ.

Согласно информации, основной целью визита было углубление сотрудничества с партнёрскими структурами Фонда в Японии, анализ условий на финансовых рынках и изучение инвестиционных возможностей.

Отмечается, что в рамках визита делегация сначала встретилась с исполнительным директором Банка Японии по вопросам монетарной политики и надзора за финансовыми рынками Кодзи Накамурой. Во время встречи стороны обсудили монетарную политику Японии и экономическую ситуацию в стране, а также влияние глобальных экономических



тенденций и региональных факторов развития.

"Затем делегация провела встречу с председателем Банка международного сотрудничества Японии (JBIC) Тадаси Маэдой. Обсуждалась деятельность банка в Азербайджане, реализованные проекты и перспективы будущего сотрудничества. Обе стороны подчеркнули важность продолжения совместных инвестиционных инициатив.

Одной из значимых встреч в Токио стал визит на Токийскую фондовую биржу. Обсуждались институциональные реформы, реализованные на фондовом рынке Японии в последние годы, меры по усилению прозрачности и корпоративного управления.

Затем делегация встретилась с руководством группы компаний Sumitomo Mitsui Trust Group, с которой Фонд сотрудничает на протяжении многих лет. Стороны обсудили текущее состояние партнёрских отношений и возможные направления для дальнейшего взаимодействия", - говорится в информации.

Также в рамках визита состоялись встречи с руководством Mizuho Financial Group, PGIM и PAG Real Assets, на которых основное внимание было уделено расширению сотрудничества в различных инвестиционных направлениях и оценке новых партнёрских возможностей.

# Экспорт ненефтяного сектора Азербайджана вырос

В январе-августе текущего года экспорт ненефтяного сектора Азербайджана увеличился на 10,3% по сравнению с аналогичным периодом прошлого года и составил 2,4 миллиарда долларов США.

Данные представлены в предварительном выпуске "Обзора экспорта" за сентябрь.

Согласно обзору, экспорт пищевых продуктов в январе-августе 2025 года вырос на 22,9% и составил 774,2 миллиона долларов США.

За восемь месяцев текущего года экспорт сахара по сравнению с аналогичным периодом прошлого года увеличился на 58,2%, фруктов и овощей - на 32,2%, продукции химической промышленности - на 24,3%, хлопковой пряжи - на 16,3%, чая - на 2,1%, черных металлов и изделий из них - на 0,2%. Экспорт сельскохозяйственной продукции вырос на 28,2% и составил 614,4 миллиона долларов США, экспорт агропромышленных товаров увеличился на 4,7% и достиг 209,5 миллиона долларов США. В целом экспорт аграрной и агропромышленной продукции вырос на 21,3% и составил 823,9 миллиона долларов США.

# Торговая война: Китай доказал свою силу американцам

«Китай разрабатывал эту стратегию годами. Более десяти лет он инвестировал в строительство инфраструктуры в развивающихся странах. Эти средства помогли Китаю наладить экономические связи и получить влияние на регионы, которые играют все более важную роль в его стремлении переориентировать торговлю с США на остальной мир», – пишет газета. NYT отмечает, что после введения пошлин президентом Трампом экспорт Китая в США сократился примерно на 15%, однако общий объем китайского экспорта не уменьшился, так как поставки были перенаправлены на другие рынки. Более того, газета указывает, что по состоянию на август годовой профицит торгового баланса Китая вырос с $612,6 млрд до $785,8 млрд. По ее данным, Китай демонстрирует стремительный рост профицита в торговле со странами Юго-Восточной Азии, Африки, Латинской Америки и Европы. Издание также отмечает, что китайские бренды электромобилей активно выходят на новые рынки Европы и Юго-



Восточной Азии, а в Африке значительно увеличиваются продажи китайских солнечных панелей. В итоге, подчеркивает газета, Китай способен поддерживать экономический рост несмотря на американские пошлины. Более того, Пекин продемонстрировал свою силу, бойкотируя закупки соевых бобов из США, что нанесло серьезный удар по фермерам американского Среднего Запада. Как отмечает издание, «у Китая есть значительные рычаги влияния, и он не боится их использовать».

2 апреля президент США Дональд Трамп объявил о введении таможенных пошлин на товары из 185 стран и территорий. Универсальные тарифы в размере 10% начали действовать с 5 апреля, а индивидуальные – с 9 апреля. В тот же день Трамп объявил о 90-дневной приостановке части ответных пошлин в связи с торговыми переговорами, в течение которых оставался универсальный тариф в 10%. Одновременно с этим он повысил пошлины на китайские товары до 125%. С учетом ранее введенной 20%-ной пошлины за недостаточные меры по борьбе с контрабандой фентанила совокупный тариф на продукцию из Китая достигал 145%. По итогам переговоров в Женеве 10-11 мая США и Китай договорились о взаимном снижении пошлин на 90 дней – с 12 мая тарифы уменьшились до 30% на китайский импорт в США и 10% на американский экспорт в Китай. Этот срок истекал 12 августа, однако Трамп продлил отсрочку введения повышенных тарифов еще на 90 дней.

# Какой уровень инфляции ждет Азербайджан в 2026 году?

Министерство экономики Азербайджана прогнозирует инфляцию в 2026 году на уровне 4,8%.

Об этом говорится в данных Министерства финансов «О предварительных показателях сводного и государственного бюджетов на 2026 год».

В ведомстве отмечают, что прогноз составлен с учетом фактического уровня инфляции текущего года, снижения мировых цен на товары, динамики обменного курса и изменений регулируемых тарифов. Ожидается, что годовая инфляция в 2025 году составит 5,4%.

По данным Госкомстата, потребительские цены в январе–августе 2025 года выросли на 5,6% к аналогичному периоду 2024 года, в августе — на 4,9% год к году и на 0,4% по сравнению с июлем.

В 2026 году рост ВВП Азербайджана прогнозируется на уровне 3,2%, общий объем ВВП составит 134,1 млрд манатов, из которых 101,7 млрд придется на ненефтегазовый сектор. Экономический рост в ненефтегазовом сегменте ожидается на уровне 8,8%.

Согласно уточненным прогнозам правительства, в 2025 году объем ВВП Азербайджана составит 129,9 млрд манатов, включая 93,5 млрд в ненефтегазовом секторе. По данным Госкомстата, за январь-август текущего года ВВП достиг 83 млрд 37,8 млн манатов, что на 1% больше прошлогоднего показателя.

Курс доллара США в 2026 году, согласно прогнозу, сохранится на уровне 1,7 маната, оставаясь стабильным с марта 2018 года.



18-24 sentyabr 2025-ci il

# Bakının işğaldan azad olunmasından 107 il ötür

Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 107-ci ildönümü tamam olur. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun həyata keçirdiyi bu xilaskarlıq missiyası Azərbaycan tarixinə şanlı hadisə kimi yazılıb. Həmin hadisədən üç il əvvəl isə azərbaycanlı oğullar Çanaqqalada türk qardaşlarının köməyinə çatmış, o torpaqda şəhadətə qovuşmuşdular. Babalarımızın miras qoyduğu bu silah qardaşlığı sonrakı illər ərzində yeni məzmunla zənginləşərək bir millət, iki dövlətin taleyində mühüm amil olub.



***Qafqaz İslam Ordusu əhali tərəfindən böyük sevinclə qarşılandı***

Bolşevik Rusiyası Birinci Dünya müharibəsindən çıxdıqdan sonra geri çəkilən rus ordusu ilə birlikdə erməni silahlı dəstələri də Cənubi Qafqaza gəldilər. Rusiya hərbçiləri silahlarını həmin vaxta qədər Anadoluda, Borçalıda, İrəvan quberniyasında, Cənubi Azərbaycan və indiki Azərbaycan Respublikası ərazisində qanlar tökən erməni bandalarına vermişdilər. O zaman daşnak-bolşevik ünsürlərdən təşkil edilmiş Bakı Soveti türk-müsəlman əhaliyə zülm edirdi. 1918-ci ilin martında azərbaycanlılara qarşı törədilən soyqırımının qarşısını nə Transqafqaz Komissarlığı, nə də Transqafqaz Seymi ala bilmədi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulanda Bakı yadellilərin əlində idi və bu səbəbdən də Gəncə şəhəri müvəqqəti olaraq paytaxt seçilmişdi. Həmçinin dövlətin müstəqilliyini müdafiə etməyə qadir milli hərbi qüvvələr hələ tam formalaşmamışdı. Dünyanı bölüşdürmək istəyən Rusiya, İngiltərə, Almaniya kimi dövlətlərin Cənubi Qafqaz, xüsusən neft Bakısı ilə bağlı planları bölgədə vəziyyəti daha da mürəkkəbləşdirirdi. Azərbaycanın müstəqillik əldə etməsi bu ölkələrin marağına uyğun deyildi.

1918-ci il iyunun 4-də Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə imzalanmış müqaviləyə əsasən Osmanlı dövləti Azərbaycana yardım etməyi öz üzərinə götürdü. Təbii ki, dünya türklüyünün və İslamın mərkəzi olan Osmanlı dövləti Cənubi Qafqazda azərbaycanlı qardaşlarının taleyinə biganə qala bilməzdi. Daşnak-bolşevik hücumlarının son dərəcə kəskinləşdiyi bir şəraitdə Osmanlının hərbi naziri Ənvər paşa qardaşı Nuru paşanın komandanlığı ilə Azərbaycana hərbi qüvvələr göndərdi. Beləliklə, Azərbaycanın milli hərbi qüvvələri də daxil olmaqla Qafqaz İslam Ordusu yaradıldı. 1918-ci il mayın 9-da Təbrizə, on bir gün sonra isə Araz çayına çatan Nuru paşa mayın 25-də Gəncəyə gəldi. Əhali tərəfindən böyük sevinclə qarşılanan Qafqaz İslam Ordusunun görəcəyi ilk işlərdən biri Gəncədə mövcud təhlükəni aradan qaldırmaq, düşmənləri tərksilah etmək və yerli əhalinin təhlükəsizliyini qorumaqdan ibarət idi. Təfərrüata varmadan qeyd edək ki, bu ordunun döyüş yolu Qaraməryəm, Kürdəmir, Ağsu, Göyçay, Salyan və Şamaxıdan keçdi.

Qafqaz İslam Ordusunun Bakıya daxil olmasının qarşısını almaq məqsədilə bolşevik Rusiyası Almaniya ilə avqustun 27-də müqavilə imzaladı. Almaniya Bakı neftindən alacağı bəlli pay müqabilində Osmanlı qoşunlarının Kür çayını keçməməsi üçün öhdəlik götürdü. Lakin bu da xilaskar ordunun yürüşünü dayandıra bilmədi. Bakı uğrunda döyüşlərdə Osmanlı və Azərbaycan əsgərləri çiyin-çiyinə vuruşdular. Şəhər sentyabrın 15-də azad edildi. Sentyabrın 16-da Osmanlı-Azərbaycan hərbi hissələrinin Bakı ətrafında paradı keçirildi. Ertəsi gün isə Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Bu, Azərbaycan tarixinə möhtəşəm qələbə və türk qardaşlığının təntənəsi kimi yazıldı.

***Tarixdə dönüş yaradan türkün zəfəri ədalətin təntənəsidir***

Milli, tarixi və məntiqi əsaslara söykənən "bir millət, iki dövlət" kəlamının təsdiqi bu gün Azərbaycan və Türkiyənin birgə fəaliyyətində, sarsılmaz qardaşlığında və müttəfiqliyində öz əksini tapır. Xatırladaq ki, Türkiyədə Çanaqqala Zəfərinin 100 illiyini (2015-ci il) və Azərbaycanda Bakının işğaldan azad edilməsinin 100-cü ildönümünü (2018-ci il) qardaş ölkələrin liderləri birlikdə qeyd ediblər.

2020-ci il dekabrın 10-da isə iki dövlətin prezidentlərinin Azərbaycanın Vətən müharibəsində Qələbəsinə həsr olunmuş Zəfər paradında iştirakı Türk dünyasında qürur doğuran hadisə olmaqla yanaşı, beynəlxalq aləmə türkün birliyini və qüdrətini bir daha nümayiş etdirdi.

1918-ci ildə işğaldan azad edilən Bakı, müasir dövrdə İkinci Qarabağ savaşından qalib çıxan Azərbaycanın paytaxtı olaraq dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir, postmüharibə dövrünün gündəliyini Azərbaycan Prezidenti İlham Əliyev diktə edir. Bu və digər tarixi məqamlar bütün Türk dünyasını qürurlandırır və sevindirir. Bugünkü reallıqlar, həmçinin Ulu Öndər Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və Qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarının həyatiliyini bir daha təsdiqləyir.



## Zəngəzur dəhlizində tikinti işlərinin 95 faizi icra olunub

Azərbaycan və Türkiyə prezidentlərinin təməlini qoyduğu Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) strateji əhəmiyyətə malik olmaqla, regionda yeni iqtisadi, nəqliyyat və kommunikasiya əlaqələrinin qurulmasına mühüm töhfə verəcək.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, uzunluğu 123,6 kilometr olan əsas yolun tikintisi hazırda 95 faiz səviyyəsində tamamlanıb.

Zəngəzur dəhlizi layihəsinin ümumi uzunluğu 149,9 kilometr təşkil edir ki, bunun 123,6 kilometri əsas yoldur. Yolun texniki dərəcəsi 1B-dir, bu da yüksəksürətli və təhlükəsiz hərəkətə imkan yaradır.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistralının bir hissəsi kimi, Azərbaycanın digər bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Layihə təkcə nəqliyyat infrastrukturunun inkişafı deyil, həm də regionda iqtisadi inteqrasiyanın sürətlənməsi, yeni ticarət marşrutlarının formalaşması və strateji əməkdaşlığın möhkəmlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Yolun tam istismara verilməsi region üçün yeni iqtisadi və geosiyasi imkanlar yaradacaq.

## Azərbaycan və Səudiyyə Ərəbistanı vergi sahəsində əməkdaşlıq imkanlarını dəyərləndiriblər



Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığı arasında vergi sahəsində əməkdaşlığın dərinləşdirilməsi imkanları müzakirə edilib. Bu barədə Trend İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir.

Dövlət Vergi Xidmətinin (DVX) rəisi Orxan Nəzərli Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli ilə görüşüb.

Görüş zamanı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında mövcud dostluq və əməkdaşlıq münasibətləri, eləcə də ikitərəfli əlaqələrin inkişaf perspektivləri müzakirə olunub. Qeyd edilib ki, ölkələrimiz arasında tərəfdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Söhbət zamanı səfirlik işçilərinin vergitutma məsələləri, bu sahədə mövcud qanunvericilik tələbləri və onların tətbiqi müzakirə olunub. Səmimi və işgüzar şəraitdə keçən görüşdə əməkdaşlığın daha da dərinləşdirilməsinin vacibliyi vurğulanıb, qarşılıqlı maraq doğuran digər məsələlər nəzərdən keçirilib.

## SOCAR ilə İsveçrə şirkəti arasında strateji əməkdaşlıq müqaviləsi imzalanıb

SOCAR ilə dünyanın ən böyük daşıma şirkəti olan MSC (Mediterranean Shipping Company) arasında strateji əməkdaşlığa dair saziş imzalanıb.



SOCAR-dan AZƏRTAC-a bildirilib ki, Bakıda keçirilən imzalanma mərasimində tərəflər Egey bölgəsinin ən böyük konteyner limanı olan "SOCAR Terminalı"nda birgə investisiyalar vasitəsilə Türkiyənin qlobal təchizat zəncirində mövqeyinigücləndirməyihədəfləyirlər.

Razılaşmaya əsasən, MSC-nin törəmə şirkəti və qlobal terminal operatoru "Terminal Investment Limited" (TIL) "SOCAR Terminalı"nda səhmdar olacaq.

Əməkdaşlıq "SOCAR Terminalı"nın TIL-in geniş qlobal şəbəkəsinə inteqrasiyasını təmin edəcək. Yeni avadanlıq və texnoloji sərmayələr nəticəsində terminal mövcud gücünü artıracaq, əməliyyat səmərəliliyini yüksəldəcək, rəqəmsallaşma, dayanıqlılıq və infrastruktur inkişafı sahəsində mühüm nailiyyətlər əldə edəcək.

Egey bölgəsinin ən böyük konteyner terminalı olan "SOCAR Terminal" 700 metrlik fasiləsiz körpü, 16 metrlik dərinlik, 420 min kvadratmetr liman ərazisi və 30 min kvadratmetr arxa sahəsi ilə həm regional, həm də qlobal ticarət üçün strateji əhəmiyyət daşıyır. ULCS sinifli yeni nəsil iri gəmiləri qəbul etmək imkanına malik olan terminal eyni anda bir neçə əsas gəmini sürətli şəkildə idarə edərək gözləmə müddətlərini minimuma endirir.

"Gələcəyin limanı" konsepsiyası ilə fəaliyyət göstərən "SOCAR Terminal" ən yüksək əmək mühafizəsi və təhlükəsizlik standartlarını tətbiq edir, rəqəmsallaşma və texnologiyaya qoyulan sərmayələrlə sənayedə qabaqcıl mövqeyini qoruyur. Bununla yanaşı, karbon izinin azaldılması, bərpaolunan enerji mənbələrinə sərmayə yatırılması və enerji səmərəliliyinin artırılması ilə dayanıqlı biznes modeli qurur.

## "Azərkosmos" və BƏƏ şirkəti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentlik ("Azərkosmos") və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "SS Creative Solutions FZE" şirkəti arasında yeni əməkdaşlıq müqaviləsi imzalanıb.

Trend "Azərkosmos"a istinadən xəbər verir ki, bu, Niderland Krallığının Amsterdam şəhərində keçirilən dünyanın ən iri media, peyk və yayım texnologiyaları sərgi-konfranslarından biri olan "IBC 2025" çərçivəsində baş tutub.

Müqaviləyə əsasən, Pakistan ərazisində televiziya yayımı layihəsinin həyata keçirilməsi nəzərdə tutulur. Layihə çərçivəsində video yayımı (video distribution) xidmətləri Azərkosmosun peyk resursları vasitəsilə təmin olunacaq.

Peyk xidmətləri, texnologiya, innovasiya və yayım sahələrini əhatə edən bu beynəlxalq platformada 170 ölkədən 50 mindən çox nümayəndə iştirak edib. Azərkosmos da bu nüfuzlu tədbirdə iştirak edərək öz məhsul və xidmətlərini təqdim edib.



# AZƏRBAYCANIN BÖYÜK VƏ ƏBƏDİYAŞAR ZİYALISI - ÜZEYİR HACIBƏYLİ

Azərbaycan musiqi mədəniyyətinin qurucusu, milli bəstəkarlıq məktəbinin yaradıcısı, milli, o cümlədən Şərqdə ilk operanın banisi Üzeyir Hacıbəyli, həm də musiqişünas alim, dramaturq, pedaqoq, publisist və ictimai xadim kimi çoxşaxəli istedada malik sənətkarlardan olmuşdur. Xalq musiqisinə xüsusi həssaslıqla yanaşan Üzeyir Hacıbəylinin XX əsrdə Azərbaycanın mədəni həyatında, mədəni quruculuq sahəsində fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir. O, 1921-ci ildə Bakıda azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbi - Azərbaycan Dövlət Türk Musiqi Məktəbini təşkil etmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Üzeyir Hacıbəyli Azərbaycan dövlətinin və xalqının milli sərvəti hesab edilən Milli Elmlər Akademiyasının da təsisçilərindən biridir. Mənim üçün çox qürurvericidir ki, təsisçiləri dünya şöhrətli alimlər, görkəmli şəxslər, o cümlədən Ü.Hacıbəyli olan Azərbaycan Milli Elmlər Akademiyasının mən də həqiqi üzvüyəm.

Dahi bəstəkarın tövsiyələri, elmi mülahizələri, müəyyən etdiyi strategiya Azərbaycan musiqisinin qorunmasında, inkişafında çox böyük rol oynamışdır. Ü.Hacıbəyli Azərbaycan xalq musiqisinin elmi əsaslarının araşdırılmasında mühüm rola malik ilk alimlərdəndir. O, Müslüm Maqomayevlə birlikdə ilk *"Azərbaycan türk el nəğmələri"* məcmuəsini nəşr etdirmişdir. Azərbaycan Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri orkestrinin təşkili də Hacıbəylinin adı ilə bağlıdır. Ü.Hacıbəyli yaradıcılığı klassik irsə, xalqın tarixinə, el ədəbiyyatına bir töhfədir. Qeyd edək ki, XX əsrdə musiqi sahəsində təşkilati işlərin başında məhz Üzeyir Hacıbəyli dayanırdı.

Azərbaycan musiqi mədəniyyəti tarixində yeni istiqamət formalaşdıran və milli bəstəkarlıq məktəbinin əsasını qoyan Ü.Hacıbəyli Azərbaycan musiqisi tarixində yalnız ilk opera, ilk musiqili komediyanın yaradıcısı deyil, həm də ilk azərbacanlı folklorçu-bəstəkar və Azərbaycan musiqisinin incəliklərini araşdıran, eyni zamanda əsaslandıran ilk azərbaycanlı musiqişünas-alimdir. Onun "Azərbaycan xalq musiqisinin əsasları" əsəri Azərbaycan xalq musiqisinin öyrənilməsi və tədqiqi sahəsində dəyərli mənbələrdəndir.

Üzeyir Hacıbəylinin mədəni irsi Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Cahangir Cahangirov, Soltan Hacıbəyov, Nazim Əliverdibəyov, Vasif Adıgözəlov, Səid Rüstəmov kimi sənətkarların formalaşmasına da əsaslı təsir göstərmişdir.

***"Leyli və Məcnun", "Koroğlu", "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşud Banu", "Əsli və Kərəm" və "Harun və Leyla" kimi məşhur operaların müəllifi olan Üzeyir Hacıbəyli həmçinin "Ər və arvad", "O olmasın bu olsun" və "Arşın mal alan" operettaları ilə musiqi elmində yeni səhifə açmışdır.***

Üzeyir Hacıbəyli fəaliyyətinin mühüm bir istiqaməti onun publisistik fəaliyyəti ilə də bağlı olmuşdur. Xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, elm və təhsilin, mədəniyyətin inkişafı sahəsində əvəzsiz xidmətlər göstərən Üzeyir Hacıbəylinin publisistikasında zəhmətkeş insanların əməyinə dəyər verilməsi, ağır vergilər qoyaraq xalqın əməyini mənimsəyənlərin tənqid edilməsi əsas yer tuturdu. Burada Üzeyir Hacıbəyli publisistikasının xüsusiliyi onun mühüm həyati problemləri, xalqın mənafeyinə zidd məsələləri çox sadə və anlaşıqlı dildə ifadə etməklə bərabər, həm də insanları güldürə və düşündürə biləcək yumoristik süjetlər qura bilməsində idi.

Üzeyir Hacıbəyli irsini səciyyələndirən mühüm cəhətlərdən biri də bir vətəndaş kimi xalqın səadəti üçün döyünən ürəyə sahib olması idi. İstedadlı qələm sahidi zəngin ideyaya malik olmaqla bərabər, həm də prinsipial mövqe tuturdu. Yazdığı hər cümlənin hesabatını ilk olaraq özündən tələb edir, mövqeyini müəyyənləşdirirdi.

Üzeyir Hacıbəyli haqqında ***"bir budağa çıxıb, çox budağı silkələyirdi"*** deyilirdi. Həqiqətən də, o, heç vaxt mövcud olanla kifayətlənmir, yeni nə isə axtarırdı. Öz felyeton və məqalələri üçün sənətkarlıqla söz axtarışına çıxan Üzeyir Hacıbəyli bu məsələdə demək olar ki, çox da çətinlik çəkmirdi. O, böyük gülüş ustası idi. Məhz bu səbəbdən sözünü güldürərək anlatmağa, daha doğrusu çatdırmağa çalışırdı. Onun ***"O olmasın, bu olsun", "Arşın mal alan"*** kimi komediyalarının, eyni zamanda digər publisistik əsərlərinin mayasında məhz gülüş dayanırdı. Əsas gülüş obyekti isə ictimai inkişafa əngəl törədən, iqtisadi və mədəni tərəqqiyə mane olan hər şey və hər kəs idi.

Hər kəlməsində bir mətləb gizlənən, hər fikrində bir ideya anladan Üzeyir Hacıbəyli gülüşü mənalı olduğu qədər, həm də öldürücü, eyham və kinayələrlə dolu idi. Hətta o, 1906-cı ildə M.S.Ordubadiyə yazırdı: ***"...yalnız güldürməyə diqqət vermə, düşündürməyə də çalış".***

İslahedici olmaqdan çox, ifşaedici xarakter daşıyan Üzeyir Hacıbəyli yaradıcılığı Azərbaycan nağıllarından, bayatılarından, lətifə və məsəllərindən, mahnılarından bəhrələnmişdi və kəsərli idi.




Üzeyir Hacıbəyli müasirləri Mirzə Cəlil və Sabir kimi güldürürdü, amma onlardan fərqli idi. Bu, milli xarakteri ilə seçilən, qarşıya qoyduğu məqsədə, mərama sonadək bağlı olan, tənqid obyektinə münasibəti və rəngarəng gülüşü ilə fərqlənən Üzeyir gülüşü idi.

Əsas qidasını xalqdan, onun canlı danışıq dilindən alan Üzeyir Hacıbəyli publisistikası öz növbəsində xalq dilini də zənginləşdirirdi. Onun əsərləri həyati materiallardan qaynaqlandığı üçün satirik forma ilə sintez olunduqda çox zəngin bədii keyfiyyətə malik əsərlər ərsəyə gəlirdi. Xüsusilə, Üzeyir Hacıbəyli yaradıcılığında onun dövri mətbuatda ***"Ordan-burdan"*** başlığı altında dərc etdirdiyi yazıların mühüm yeri vardır. Müxtəlif publisistik janrları özündə birləşdirən bu yazılar öz ictimai-siyasi məzmunu və bədii dəyəri ilə seçilirlər.

Üzeyir Hacıbəyli yaradıcılığına xas olan cəhətlərdən bir digəri isə onun ***"Ordan-burdan"*** başlığı altında dərc etdirdiyi yazılarda felyetonların adsız, yəni başlıqsız olması idi. Orada əks olunan başlıqlar əsərlərin məzmunu ilə bağlı olan şərti adlardır. Onun mövhumata, fırıldaqçıların ifşasına yönəlik satirik əsərləri ***"Molla Nəsrəddin" jurnalında "Ordan-burdan"*** başlıqlı silsilə yazılar altında əks olunaraq, xalqın elm, təhsil sahəsində nailiyyətlər əldə etməsinə yönəlmişdi.

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, bu yazını da qələmə alarkən şəxsi kitabxanamda Üzeyir Hacıbəylinin adı ilə bağlı olan ədəbiyyatlardan, xüsusilə müəllifə məxsus "Ordan-burdan" kitabından istifadə etmişəm.

Seçdiyi hədəfi dəqiq müəyyənləşdirməyi bacaran dahi söz ustası dilin şirinliyi və üslubun dadı-duzunu qoruyaraq, sərrast atəş açmağı çox ustalıqla bacarırdı. Öz kəmiyyət və keyfiyyətinə, tərbiyəvi əhəmiyyətinə görə Üzeyir Hacıbəylinin bədii publisistikasında xüsusi yer tutan qaravəlliçilik onun sənətinin xəlqiliyini də bariz nümayiş etdirirdi. Bu baxımdan müəllifin ***"Müalicə", "Qafqazda müsəlman kəndlisinin halı", "Moizə", "Bir intelligentin xəyalı", "Kimdən nə soruşdular"*** kimi əsərlərini qeyd etmək mümkündür. Onun qaravəlli və satirik miniatürlərini sonrakı səhnə əsərləri üçün müqəddimə də hesab etmək olar.

Üzeyir Hacıbəyli publisistikası bədii təsvir və ifadə vasitələrinin zənginliyi ilə də yüksək sənətkarlıq nümunəsidir. Milli təəssübkeşliyi, vətənpərvərliyi, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında misilsiz xidmətləri ilə xalqımıza tükənməz mənəvi irs qoyub gedən dahi sənətkarın ölməz ideyalarını yaşatmaq, davam etdirmək hər bir azərbaycanlının həyat devizinə çevrilməlidir.

Üzeyir Hacıbəyli istər özünün musiqi sahəsindəki fəaliyyəti, istərsə də publisistik yaradıcılığı ilə Azərbaycan mədəniyyəti, Azərbaycan ədəbiyyatı, tarixi sahəsində müstəsna xidmətlər göstərmişdir. Mədəni, tarixi inkişaf isə sonda ölkənin ümumi iqtisadi inkişafına təsir edən amillərdəndir. Bu baxımdan Ü.Hacıbəylinin fəaliyyəti həm də ölkəmizin iqtisadi tərəqqisi baxımından yüksək dəyərə malikdir. Zaman dəyişsə də, onun yaradıcılığının sosial-iqtisadi, ictimai-siyasi, mədəni həyatda oynadığı rol əbədi yaşayacaq, gələcək nəsillər üçün əsas təməl daşı olacaqdır.

Bu yazını çapa hazırlayarkən saytların birində dahi bəstəkarımız Üzeyir Hacıbəyli ilə əlaqədar xoşagəlməz bir yazı ilə qarşılaşdım. Bəzən heç yerdə tanınmayan, səviyyəsiz insanlar dahilər haqqında ***"araşdırmalar"*** aparır, cəmiyyətdə tariximiz, mədəniyyətimiz haqqında mənfi fikirlər yaradırlar.

Çox təəssüf ki, son vaxtlar Azərbaycan mədəniyyətinin inkişafına mane olmaq, tarixi həqiqətləri pozmaq istəyən, ləkələyən insanlar peyda olub. Oxuduğum yazıda dahi bəstəkar Üzeyir Hacıbəylinin tələbələri ilə olan münasibətlərinə toxunulur, onun ölümündə günahkar axtarırlar... Bu cür çıxışlar müxtəlif saytlarda yer alır ki, bu da Azərbaycan mədəniyyətinə, milli-mənəvi dəyərlərimizə bir zərbədir.

Unutmayaq ki, Üzeyir Hacıbəyli kimi dahilər hər xalqın tarixində olmur. Bu bir danılmaz faktdır ki, Üzeyir Hacıbəyli dahi bəstəkardır, Şərqdə ilk operanın yaradıcısıdır. O, əsl Vətən oğlu, böyük pedaqoq idi. Bir müəllim kimi tələbələrinə münasibətləri nümunəvi idi, onlara böyük məsuliyyətlə yanaşırdı. Belə olmasaydı, ondan sonra ölkəmizdə böyük bəstəkarlar yetişə bilməzdi. Üzeyir bəy tələbələrinə qarşı tələbkar olmasaydı, musiqi dünyasında onları düzgün yola istiqamətləndirməsəydi, bu gün Azərbaycanda dünya şöhrətli bəstəkarlar, musiqiçilər bəlkə də, çox az olacaqdı.

2025-ci il sentyabrın 18-i dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim, istedadlı publisist, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Əbdülhüseyn oğlu Hacıbəylinin anadan olmasının 140 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır. Azərbaycan mədəniyyətinin inkişafına misilsiz töhfələr vermiş qüdrətli sənətkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünün layiqincə keçirilməsini təmin etmək məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Azərbaycan xalqı qədirbilən xalqdır. Əminəm ki, bu xalq Üzeyir Hacıbəylinin əziz xatirəsini qəlbində daim yaşadacaq.

**Ziyad Səmədzadə**
**akademik**

# Gələn ilin iqtisadi artımı açıqlanıb

2026-cı ilin sonuna ölkədə ümumi daxili məhsulun həcminin (ÜDM) 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-inin 101,7 milyard manat təşkil edəcəyi gözlənilir.

AZƏRTAC Maliyyə Nazirliyinə istinadən xəbər verir ki, 2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata, qeyri-neft-qaz ÜDM-in isə 129,5 milyard manata çatacağı proqnozlaşdırılır. Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in isə 4,9 faiz olacağı proqnozlaşdırılır. 2029-cu ildə ÜDM-inin tərkibində qeyri-neft-qaz sektorunun payının artaraq 80 faizə çatacağı gözlənilir.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-avqust aylarında ölkədə 83 milyard 37,8 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1 faiz çox ümumi daxili məhsul istehsal olunub.




# Büdcədənkənar daxilolmaların 16% artacağı proqnozlaşdırılır



2026-ci ildə Azərbaycanda büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların 1 milyard 21 milyon manat olacağı gözlənilir.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

Məlumata görə, bu, 2025-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 16% çoxdur.

Büdcənin sair daxilolmalar üzrə proqnozu isə 13,9% artırılaraq 981 milyon manata çatdırılıb.

# İcmal büdcə 49 milyard manata yaxın olacaq

2026-cı ildə Azərbaycanın icmal büdcəsinin gəlirlərinin 44 milyard 825,3 milyon manat, xərclərinin isə 48 milyard 683,1 milyon manat olacağı gözlənilir.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

Məlumata görə, bunlar, 2025-ci ilin təsdiq olunmuş proqnozlarına nisbətən müvafiq olaraq 2% və 2,2% çoxdur.

Son nəticədə icmal büdcədə 3 milyard 857,8 milyon manat kəsir yaranmalıdır. Bu isə illik müqayisədə 4,9% çoxdur.

# Azərbaycanın xarici ticarətində dövlət, özəl sektor və fiziki şəxslərin pay bölgüsü açıqlandı

Bu ilin yanvar-avqust aylarında Azərbaycana məhsul idxalının həcmi 15,052 milyard ABŞ dolları təşkil edib.

Trend bu barədə Dövlət Gömrük Komitəsindən məlumat əldə edib.

Məlumata görə, idxalda dövlət sektoru 4,968 milyard dollar, özəl sektor 8,691 milyard dollar, fiziki şəxslər isə 1,394 milyard dollar paya malik olub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə bu göstəricilər müvafiq olaraq 50,6%, 6,1% və 9,6% artıb.

Hesabat dövründə dövlət sektorunun idxalda xüsusi çəkisi 33%-ə, özəl sektorda 57,74%-ə, fiziki şəxslərin isə idxalda payı 9,26%-ə bərabər olub.

Eyni zamanda, 2025-ci ilin yanvar-avqust aylarında Azərbaycandan məhsul ixracının dəyəri 17,065 milyard ABŞ dolları olub.

Məlumata görə, ixracda dövlət sektoru 7,571 milyard dollar, özəl sektor 9,417 milyard dollar, fiziki şəxslər isə 76,706 milyon dollar paya malik olub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə bu göstəricilər müvafiq olaraq 11,2%, 2% və 13,8% azalıb.

Hesabat dövründə dövlət sektorunun ixracda xüsusi çəkisi 44,37-ə%, özəl sektorda 55,18%-ə, fiziki şəxslərin isə idxalda payı 0,45%-ə bərabər olub.



# ABŞ Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunu 40%-ə yaxın artırıb



Bu ilin ilk 6 ayında Amerika Birləşmiş Ştatlarından (ABŞ) Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyaların həcmi 89,493 milyon ABŞ dolları təşkil edib. Bu barədə Azərbaycan Mərkəzi Bankından bildirilib. Məlumata əsasən, bu, ötən ilin eyni dövründəki göstərici ilə müqayisədə 25,452 milyon ABŞ dolları və ya 39,7% çoxdur.

Hesabat ilində Azərbaycana birbaşa xarici investisiyaların ümumi həcmində ABŞ-dən yatırılan investisiyaların payı 2,8% təşkil edib.

Öz növbəsində, Azərbaycan cari ilin ilk 6 ayında ABŞ iqtisadiyyatına 77,621 milyon ABŞ dolları sərmayə qoyub ki, bu da ötən ilin eyni dövründəki göstərici ilə müqayisədə 57,960 milyon ABŞ dolları və ya 3,9 dəfə çoxdur.

Birbaşa xarici investisiyaların ümumi həcmində ABŞ-yə yatırılan Azərbaycan investisiyalarının xüsusi çəkisi 5,8% təşkil edib. Bununla da ABŞ Azərbaycanın ən çox investisiya yatırımı etdiyi ölkələr sırasında 4-cü pillədə qərarlaşıb.

Xatırladaq ki, 2024-cü ilin ilk 6 ayında Amerika Birləşmiş Ştatlarından Azərbaycana birbaşa xarici investisiyaların həcmi 64,041 milyon ABŞ dolları, Azərbaycandan sözügedən ölkəyə yatırılan investisiyaların həcmi isə 19,661 milyon ABŞ dollarına bərabər olub.

Qeyd edək ki, 2025-ci ilin ilk 6 ayında Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 3,222 milyard ABŞ dollarından çox olub. Bu isə 2024-cü ilin eyni dövründəki göstəriciyə nisbətən 244,295 milyon ABŞ dolları və ya 8,2% artım deməkdir.

Eyni zamanda hesabat dövrü ərzində Azərbaycandan xarici iqtisadiyyata yönəldilmiş birbaşa xarici investisiyaların həcmi isə 1,350 milyard ABŞ dolları olub ki, bu da 2024-cü ilin ilk 6 ayındakı göstərici ilə müqayisədə 351,561 milyon ABŞ dolları və ya 35,2% çoxdur.

# Azərbaycanın strateji valyuta ehtiyatları 78 milyard dollara yaxınlaşıb

“Bu ilin ilk 6 ayında Azərbaycanın strateji valyuta ehtiyatları 6,7 milyard dollar artaraq 77,7 milyard dollara çatıb”. Trend xəbər verir ki, bunu Azərbaycan Mərkəzi Bankının (AMB) Statistika departamentinin direktoru Samir Nəsirov tədiyə balansının təqdimatına həsr olunmuş brifinqdə bildirib. *"Bu da ölkənin makroiqtisadi dayanıqlığının gücləndiyini göstərir. Bu dövrdə Azərbaycanın ixrac etdiyi reallaşmış xam neftin qiyməti 70,7 ABŞ dolları olub. Həmçinin hesabat dövründə Azərbaycan qazının ixrac olunmuş min kubmetri 301 dollar təşkil edib"*, - deyə AMB rəsmisi qeyd edib.

## “AzerGold” QSC-nin təşkilatçılığı ilə keçirilən sayca 5-ci səyyar tibbi müayinə aksiyasına yekun vurulub

“AzerGold” QSC-nin təşkilatçılığı, Bakı Sağlamlıq Mərkəzinin dəstəyi ilə Daşkəsən rayonunda keçirilən növbəti səyyar tibbi müayinə aksiyası uğurla yekunlaşıb.



“Öncə sağlamlıq!” devizi altında təşkil olunan aksiyada “Çovdar” qızıl mədəninin yaxınlığında yerləşən Çovdar kəndi, Şadax yaşayış məntəqəsi, Çaykənd, Quşçu, Bayan və digər kəndlərin sakinləri 3 gün müddətində ödənişsiz olaraq müxtəlif tibbi xidmətlərdən yararlanıblar.

Aksiyanın ilk günündə şəhid ailələri, o cümlədən qazi və müharibə iştirakçıları müayinəyə cəlb edilib. Peşəkar həkim briqadası tərəfindən 300 nəfərdən çox sakin ümumi cərrah, uşaq cərrahı, otorinolarinqoloq, terapevt, revmatoloq, endokrinoloq, kardioloq, nevropatoloq, pediatr, USM, EXO, EKQ, qanın və sidiyin ümumi analizi, qanda virus hepatitlərin təyini, ambulator qan təzyiqi monitorizasiyası və şəkərin təyini müayinələrindən keçirilib. Qeyd olunan istiqamətlər üzrə sakinlərə ümumilikdə 1317 tibbi xidmət göstərilib. Müayinələr əsnasında müxtəlif xəstəliklər aşkarlanan vətəndaşlara müvafiq müalicə kursları təyin edilib.

Qeyd edək ki, 2021-ci ildən etibarən mütəmadi olaraq keçirilən səyyar tibbi müayinə aksiyası ucqar kənd sakinlərinin keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlığının artırılması, xəstəliklərin erkən diaqnostikası və profilaktik müayinə mədəniyyətinin təbliği məqsədi daşıyır. Sözügedən aksiyalar zamanı bugünədək ümumilikdə 2400 nəfərdən çox Daşkəsən sakini ümumilikdə 9363 xidmətdən yararlanıb.

Xatırladaq ki, “AzerGold” QSC tərəfindən hasilat sahələrinin yerləşdiyi bölgələrdə həyata keçirilən kiçik, orta və irimiqyaslı sosial layihələr



əsasən ətraf mühitin mühafizəsi, təhsil, sağlamlıq, məşğulluğun artırılması, kiçik və orta sahibkarlığın təşviqi, idman növlərinin təbliği, maarifləndirmə və digər mühüm istiqamətləri əhatə edir.

Şirkətin prioriteti yerli icmaların, xüsusilə də sosial baxımdan həssas qruplara aid olan ailələrin dayanıqlı rifahının təmin olunmasına dəstək olmaq, dövlət tərəfindən aparılan uğurlu sosial siyasətə əlavə töhfələr verməkdir.

# Gələn il üçün inflyasiya proqnozu açıqlanıb

Azərbaycan hökuməti 2026-cı ildə ölkədə illik inflyasiyanın 4,8% təşkil edəcəyini proqnozlaşdırır.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.



Proqnozu İqtisadiyyat Nazirliyi cari ilin ötən dövründə faktiki inflyasiya səviyyəsini, dünya üzrə əmtəə, o cümlədən ərzaq qiymətlərinin nisbətən aşağı düşməsi və bunun idxal qiymətlərinə təsirini, nominal effektiv məzənnə indeksinin dinamikasını və məzənnənin sabit qalması fərziyyələri, mal və xidmətlərin tənzimlənən tariflərinin dəyişməsinin təsirlərini nəzərə alaraq hazırlayıb. Nazirlik 2025-ci ildə ölkədə illik inflyasiyanın 5,4% olacağını gözləyir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-avqust aylarında istehlak qiymətləri 2024-cü ilin eyni dövrü ilə müqayisədə 5,6%, avqust ayında ötən ilin eyni ayına nisbətən 4,9%, bu ilin iyul ayına nisbətən 0,4% artıb.

# "UNİVERSAL METAL” QSC-nin 31 dekabr 2024-cü il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | Qeyd | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 7 | 243 439,95 | 63 930,94 |
| Qeyri-maddi aktivlər | 8 | | |
| Verilmiş borclar | | | |
| Uçota alınmış investisiyalar | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **243 439,95** | **63 930,94** |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 10 | 74 671,48 | 3 189,54 |
| Qısamüddətli debitor borcları | 11 | 960 275,93 | 133 463,55 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 14 | 145 215,07 | 162 578,11 |
| Digər aktivlər | 12 | 140 971,73 | 64 172,38 |
| Sair qısamüddətli aktivlər | | | |
| Gələcək dövrün xərcləri | 12 | | |
| Sair qısamüddətli Maliyyə aktivləri | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | **1 321 134,21** | **363 403,58** |
| **CƏMİ AKTİVLƏR** | | **1 564 574,16** | **427 334,52** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Nizamnamə kapitalı | 20 | 2 000,00 | 2 000,00 |
| Kapital ehtiyatları | | | |
| Hesabat dövrünün bölüşdürülməmiş xalis mənfəəti /zərəri | 30 | 351 179,12 | 156 582,73 |
| Əvvəlki illərin bölüşdürülməmiş xalis mənfəəti /zərəri | | | - 634 392,31 |
| **CƏMİ KAPİTAL** | | **353 179,12** | **- 475 809,58** |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli öhdəliklər | 19 | 204 995,00 | 536 645,00 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | - | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **204 995,00** | **536 645,00** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 16 | | |
| Qısamüddətli borclar (alınmış avanslar) | | | |
| Qısamüdətli kreditor borcları | 18 | 672 393,13 | 307 721,12 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 17 | 334 006,91 | 58 777,98 |
| Sair qısamüdətli öhdəliklər | | | |
| **Cəmi qısa müddətli öhdəliklər** | | **1 006 400,04** | **366 499,10** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1 211 395,04** | **903 144,10** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **1 564 574,16** | **427 334,52** |

**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT**

| | | | Azərbaycan manatı ilə |
|---|---|---|---|
| | **Qeyd** | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
| Əsas əməliyyat gəliri | 21 | 7 043 954,84 | 4660 099,00 |
| Satışın maya dəyəri | 24 | - 6 107 100,04 | -4406 774,26 |
| **Ümumi mənfəət (zərər)** | | **936 854,80** | **253 324,74** |
| Daşınmaz əmlakın icarəsindən gəlirləri | | | |
| Kommersiya xərcləri | | | |
| İnzibati xərclər | 26 | - 5 000,00 | - 85 333,79 |
| Sair əməliyyat xərcləri | | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **931 854,80** | **167 990,95** |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 24 | - 1 536,85 | - 640,59 |
| Məzənnə fərqi | | | |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **930 317,95** | **167 350,36** |
| Keçmiş illərin zərərinə silinir | | | - |
| Mənfəət üzrə azadolmalar və güzəştlər | | | - |
| Vergidən azad olan gəlirlər | | - | - |
| **Vergiyə cəlb olunan mənfəət** | | **930 317,95** | **167 350,36** |
| Mənfəət vergisi xərci | 29 | - 101 329,25 | - 10 767,63 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 30 | **828 988,70** | **156 582,73** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| **Səhmdarların payı** | | 4 651,59 | 836,75 |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | | |
| **Bir səhmin əsas mənfəəti** | 30 | 4 144,94 | 782,91 |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| | | | | Azərbaycan manatı ilə |
|---|---|---|---|---|
| | **Nizamnamə Kapitalı** | **Kapital ehtiyatları** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | | | | |
| 2023-cü il üzrə xalis mənfəət | | | 156 582,73 | **156 582,73** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | - |
| Elan edilmiş dividendlər | | | | - |
| Mənfəətin istifadəsi | | | | - |
| Maddələr arasında köçürmələr | | | | - |
| **31 dekabr 2023-cü il tarixə qalıq** | **2 000,00** | **-** | **- 477 809,58** | **- 475 809,58** |
| 2024-cü il üzrə xalis mənfəət | | | 828 988,70 | **828 988,70** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | - |
| Elan edilmiş dividendlər | | | | - |
| Mənfəətin istifadəsi | | | | - |
| Maddələr arasında köçürmələr | | | | - |
| **31 dekabr 2024-cü il tarixə qalıq** | **2 000,00** | **-** | **351 179,12** | **353 179,12** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| | Qeyd | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | | 930 317,95 | 167 350,36 |
| Mənfəət vergisi üzrə xərclər | 29 | - 101 329,25 | - 10 767,63 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 24 | 36 166,40 | 21 000,67 |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | | 22 000,00 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 8 | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 10 | - 71 481,94 | 42 229,18 |
| Debitor borcları üzrə artma/azalma | 11 | - 826 812,38 | - 133 463,55 |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə artma/azalma | | | |
| Digər aktivlərdə | 12 | - 76 799,35 | - 4 750,03 |
| Sair qısamüddətli aktivləri üzrə artma/azalma | | | |
| Alınmış avanslar üzrə artma/azalma | | | |
| Cari vergi və sosial sığorta-öhdəlikləri üzrə artma/azalma | 17 | 275 229,03 | 19 915,46 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | | | |
| Sair qısamüddətli kreditor borcları | 18 | 364 672,01 | - 8 389,94 |
| Sair uzunmüddətli öhdəliklər | 19 | - 331 650,00 | 46 600,00 |
| Maddələr arasında baş vermiş dəyişikliklər | | | |
| Mənfəət vergisi ödənilmişdir | | | |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **198 312,47** | **161 724,52** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 7 | - 215 675,51 | - 42 745,17 |
| Qeyri-maddi aktivlərin alınması | 8 | | |
| Uzunmüddətli kapital qoyuluşları | | | |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **- 215 675,51** | **- 42 745,17** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **- 17 363,04** | **118 979,35** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 12 | **162 578,11** | **43 598,76** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 12 | **145 215,07** | **162 578,11** |
| **İl ərzində artım/azalma** | | **- 17 363,04** | **118 979,35** |

**SƏRBƏST AUDİTOR** **İNDEPENDENT AUDİTOR**

Azərbaycan Respublikası, AZ1130 24A/23 A. Nahchivani street Phone: 070 338 6727
Bakı şəhəri, Ə. Naxçıvani küç. 24A/23 AZ1130, Baku Azerbaijan Phone: 050 338 6727
VÖEN: 1005147262 TAX ID: 1005147262
Audit icazəsi: SA/387 Audit License: SA/387 email:
aliyev.n2012@gmail.com

**Müstəqil Auditorun Maliyyə Hesabatlarının Auditinə Dair Hesabatı**
**"UNİVERSAL METAL” Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**
**Rəy**

Mən “UNİVERSAL METAL” Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - şirkət) 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, qoşma maliyyə hesabatları Şirkətın 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Peşəkar Mühasiblərin Etika Məcəlləsinin” (IESBA) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyiləm və mən digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq Maliyyə Hesabatları Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkətı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

- **Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.**
- **Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.**
- **İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndirirəm.**
- **Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrim auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.**
- **Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.**

Mən subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyim əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Şirkətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməninin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatında təsvir edirəm.

**Sərbəst Auditor**
**Əliyev Natiq Firuddin oğlu ________________**

**Bakı şəhəri, Azərbaycan Respublikası**
**12 avqust, 2025-ci il**

# İnflyasiya ilə bağlı 2030-cu ilə qədər olan proqnoz açıqlanıb



Maliyyə Nazirliyindən bildirilib ki, eyni zamanda, inflyasiyanın 2027-ci ildə 4,5 faiz, 2028-ci ildə 4,3 faiz olacağı proqnozlaşdırılıb.

İqtisadiyyat Nazirliyi tərəfindən cari ilin ötən dövrü ərzində faktiki inflyasiya səviyyəsi, dünya üzrə əmtəə, o cümlədən ərzaq qiymətlərinin nisbətən aşağı düşməsi və bunun idxal qiymətlərinə təsiri, nominal effektiv məzənnə indeksinin dinamikası və məzənnənin sabit qalması fərziyyələri, mal və xidmətlərin tənzimlənən tariflərinin dəyişməsinin təsirləri nəzərə alınaraq baza ssenaridə cari il üzrə 5,4 faiz proqnozlaşdırılan orta illik inflyasiyanın tədricən azalaraq 2029-cu ildə 4,2 faiz olacağı gözlənilir.

# Vergi orqanlarının büdcə öhdəliyi 8,5% artırılır

2026-cı ildə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin büdcəyə 16 milyard 821 milyon manat vəsait köçürəcəyi gözlənilir.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir. Məlumata görə, bu, 2025-ci ilə təsdiq olunmuş proqnozu ilə müqayisədə 8,5% çoxdur.



# Zakir İbrahimov “Gələcəyin mədənçisi” təhsil layihəsinin tələbə adını qazanmış iştirakçıları ilə görüşüb




“AzerGold” QSC-də kadr hazırlığı və sosial məsuliyyət fəaliyyəti çərçivəsində icra edilən “Gələcəyin mədənçisi” layihəsinin tələbə adını qazanmış iştirakçıları ilə görüş keçirilib.

Hibrid formatda təşkil edilən görüşdə “AzerGold” QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, tələbə adını qazanmış layihə iştirakçıları, onların təmsil olunduqları orta təhsil məktəblərinin rəhbərləri, Daşkəsən rayonunun təhsil ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Zakir İbrahimov layihə iştirakçılarını təbrik edərək, təhsil həyatında davamlı uğurlar arzu edib, onların gələcəkdə dağ-mədən sahəsi üzrə ixtisaslı mütəxəssis kimi yetişməsi üçün Cəmiyyət tərəfindən bundan sonra da müvafiq dəstəyin göstəriləcəyini diqqətə çatdırıb.

Möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində dağ-mədən sənayesinin aparıcı sahələrdən birinə çevrildiyini qeyd edən Z.İbrahimov sürətli inkişafın geniş iqtisadi imkanlar yaratmaqla yanaşı, peşəkar kadrlara olan tələbatı da artırdığını bildirib.

Şirkətin həyata keçirdiyi təhsil layihələrinin, təcrübə və təqaüd proqramlarının əsas hədəfinin bu ehtiyacın xüsusilə hasilat bölgələrində yaşayan sakinlərin hesabına ödənilməsinə töhfə vermək olduğu vurğulanıb.

2021-ci ildən bugünədək təhsil və təcrübə proqramlarını uğurla başa vuran 25 nəfərin artıq “AzerGold” QSC-nin peşəkar komandasına qoşulduğunu qeyd edən İdarə Heyətinin sədri bu göstəricinin reallaşdırılan layihələrin perspektivliyinin və effektivliyinin bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Görüşdə “Gələcəyin mədənçisi” layihəsi ilə yanaşı, Heydər Əliyev Fondunun təşəbbüsü və “AzerGold” QSC-nin dəstəyi ilə həyata keçirilmiş yeni modul tipli məktəb binasının inşası, eləcə də bölgədə təhsilin maddi-texniki bazasının gücləndirilməsinə yönəlmiş digər sosial layihələrin əhəmiyyəti barədə geniş fikir mübadiləsi aparılıb, gələcəkdə atılacaq addımlardan bəhs edilib.

Qeyd edək ki, “Gələcəyin mədənçisi” layihəsinin icrasına 2023-cü ildə başlanılıb. Daşkəsən rayonunda təhsil alan və layihədə iştirak etmək istəyən 10-cu sinif şagirdləri müvafiq test imtahanı və inşa yazısı müsabiqəsinə cəlb ediliblər. Növbəti mərhələdə daha məqbul qiymətlər alan 10 nəfər şagird metallurgiya, dağ-mədən mühəndisliyi və geologiya ixtisasları üzrə 20 aylıq ali məktəbə hazırlıq proqramına cəlb edilib. Layihəni uğurla başa vurmuş 8 şagirddən 4 nəfəri ali məktəbə qəbul imtahanlarının nəticələrinə uyğun olaraq tələbə adını qazanıb.

# “Bakcell” Bilik Günü münasibətilə Müasir Təhsil Kompleksinin şagirdləri ilə görüşdü




İnnovasiya və sürət lideri ***“Bakcell” 15 sentyabr – Bilik Günü münasibətilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksində (MTK) “Növbəti nəsil: Süni intellekt və İnnovasiya”*** adlı tədbir təşkil edib. Tədbirin əsas məqsədi gənclərin süni intellekt və innovasiya sahəsində bilik və bacarıqlarını inkişaf etdirmək, onları gələcəyin rəqəmsal çağırışlarına hazırlamaq olub.

Görüş çərçivəsində “Bakcell” və MTK-nın rəhbərliyinin iştirakı ilə panel müzakirəsi keçirilib. Paneldə süni intellektin gündəlik həyat və iş mühitinə təsirləri, innovasiyaların gələcəyi geniş şəkildə müzakirə edilib. Tədbir zamanı süni intellekt əsaslı robotun iştirakı iştirakçılarda böyük maraq yaradıb. “Prompt mühəndisliyi” mövzusunda keçirilən sessiyada isə iştirakçılar süni intellekt alətlərinin təqdim etdiyi imkanlarla, həmçinin bu alətlərin ölkədə və beynəlxalq miqyasda müxtəlif fəaliyyət sahələrinə təsiri ilə daha yaxından tanış olublar. Gənclər praktiki məşğələlər vasitəsilə öz ideyalarını vizuallaşdıraraq sessiyanın sonunda real təcrübə qazanıblar.

***“Azərbaycanın rəqəmsal gələcəyi məhz gənclərin bacarığı və onların yaratdığı innovasiya ekosistemi üzərində qurulacaq. Bu istiqamətdə təşkil olunan tədbirlər Azərbaycanın gənclərinə biliklərini zənginləşdirmək, praktiki bacarıqlar qazanmaq və gələcəyin innovativ liderləri kimi formalaşmaq üçün imkan yaradır”***, - deyə “Bakcell”in baş icraçı direktoru Klaus Müller bildirib.

***"Süni intellekt kimi müasir texnoloji platformaların gətirdiyi çətinliklərin öhdəsindən gəlmək üçün təhsil müəssisələri sabah yox, bu gün addım atmalıdır"***, - deyə MTK-nın baş icraçı direktoru Tural Abbasov bildirib.

“Bakcell” sürətlə dəyişən dünyada gənclərin innovativ düşüncə tərzinin formalaşmasını və rəqəmsal bacarıqların inkişafını əsas prioritetlərindən biri hesab edir.

Bu istiqamətdə həyata keçirilən layihələr ölkədə innovasiya ekosisteminin güclənməsinə və gələcəyin işçi qüvvəsinin hazırlanmasına töhfə verir.

# Azərbaycanda orqan transplantasiyasının intibah dövrünün başlanğıcı

***Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və Orqan Transplantasiyası şöbəsinin transplantoloqu, t.ü.f.d., Səhiyyə əlaçısı, Mircəlal Kazıminin “Azərbaycanda orqan transplantasiyasının intibah dövrünün başlanğıcı" mövzusunda müsahibəsini diqqətinizə çatdırırıq.***

Orqan transplantasiyası əməliyyatları digər cərrahi əməliyyatlarla müqayisədə ən mürəkkəb və riskli əməliyyatlar qrupuna daxildir. Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və Orqan Transplantasiyası şöbəsinin transplantoloqu, t.ü.f.d., Səhiyyə əlaçısı, Mircəlal Kazımi bildirib ki, burada təkcə əməliyyatın özü ilə bağlı məsələlər deyil, həm də əməliyyatdan sonrakı proses, xəstənin vəziyyəti, həkim heyətinin fəaliyyəti və ən əsası, orqanın orqanizmdə işləməsi birbaşa nəticəyə təsir göstərir. Xəstənin maariflənmiş olması, sosial və məişət şəraiti də prosesə təsir edir. Bu günədək Azərbaycan səhiyyəsində orqan transplantasiyası sahəsində mühüm irəliləyişlər yaşanıb. Bizim komandamız 2008-ci ilin 12 dekabrında Azərbaycanda və ümumiyyətlə, regionda ilk dəfə olaraq qaraciyər transplantasiyası həyata keçirib. Bu hadisə ölkəmizdə orqan transplantasiyasının intibah dövrünün başlanğıcı oldu. 2011-ci ildə isə biz Naxçıvanda ilk dəfə böyrək transplantasiyası icra etdik.

Bu günədək yalnız bizim komanda tərəfindən 1500-dən çox, ümumilikdə isə ölkə üzrə 2000-dən artıq orqan transplantasiyası əməliyyatı həyata keçirilib. Bu göstərici regionda ən yüksək nəticədir və Azərbaycan səhiyyəsinin mühüm uğuru hesab olunur.



**Gələcəkdə donor donuzlar olacaq?**

Dr.Mircəlal Kazımi qeyd edib ki, əməliyyatların təxminən 99 faizi canlı donordan alınan orqanlar vasitəsilə icra olunub:

***"2025-ci ilin 6 fevralında isə ilk dəfə beyin ölümü qeydə alınmış şəxslərin ailəsi tərəfindən orqanlar bağışlandı və nəticədə qaraciyər, böyrək və gözün buynuz qişa transplantasiyalarını uğurla həyata keçirdik. Fevral ayından bu günədək beyin ölümü keçirmiş 3 vətəndaşın orqanlarının transplantasiya məqsədilə alınmasına ailəsi razılıq verib. Həmin orqanlardan qaraciyər, böyrək və gözün buynuz qişasının transplantasiyasında istifadə olunub".***

M.Kazımi Azərbaycanda orqan transplantasiya əməliyyatlarının uğur faizinin dünya standartlarına uyğun olduğunu da vurğulayıb:

***"Qaraciyər transplantasiyasından sonra xəstələrin 1 illik yaşama göstəricisi 90-91%, 3 illik göstəricisi 80-85%, 5 illik göstəricisi isə 70-71% təşkil edir. Böyrək transplantasiyasında isə bu rəqəmlər daha yüksəkdir – 1 illik yaşama faizi 95%-dən çoxdur".***

Mütəxəssis onu da bildirib ki, 2022-ci ilin avqust ayına qədər orqan transplantasiyası əməliyyatları xəstələrin şəxsi hesabına, yəni ödənişli şəkildə icra olunurdu, lakin artıq bu əməliyyatlar İcbari Tibbi Sığorta Xidmətləri Paketinə daxil edilib:

***"Beləliklə, artıq xəstələr transplantasiya əməliyyatlarını dövlət hesabına, tamamilə ödənişsiz şəkildə həyata keçirə bilirlər. Bu günə qədər 300-ə yaxın insan icbari sığorta çərçivəsində pulsuz transplantasiya əməliyyatı olunub. Bu göstəricilərdən də aydın olur ki, orqan transplantasiyası sahəsi daim inkişaf edir".***

Ekspert əlavə edib ki, gələcəkdə orqan transplantasiyasının əsas yolu məhz donuzlardan alınan genetik dəyişdirilmiş orqanların insanlara köçürülməsi olacaq:

"Tibbdə hər gün yeniliklər, müasir texnologiyalar tətbiq olunur. Hazırda dünyanın müxtəlif ölkələrində – xüsusilə ABŞ və Çində genetik dəyişiklik edilmiş donuz orqanlarının insanlara köçürülməsi istiqamətində ciddi elmi araşdırmalar aparılır. Lakin hazırda bizim bu sahədə imkanlarımız yoxdur. Buna görə də transplantasiya əməliyyatlarımız yalnız canlı donorlardan və yeni başlanan meyit donorluq təcrübələri əsasında həyata keçirilir. Bu səbəbdən hər bir vətəndaşın üzərinə böyük məsuliyyət düşür. Bizim vəzifəmiz orqan bağışlanması ilə bağlı maarifləndirmə işlərini aparmaq, ictimaiyyətdə bu prosesə dəstək göstərməkdir. Mən öz adımdan hər kəsi orqan bağışlanmasına dəstək olmağa, həyatı xilas edən bu humanist addımı atmağa çağırıram".

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Mərkəzi Gömrük Hospitalında “Damar cərrahiyyəsinə ümumi baxış” mövzusunda seminar keçirilib



12 sentyabr 2025-ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin təşkilatçılığı ilə Mərkəzi Gömrük Hospitalında “Damar cərrahiyyəsinə ümumi baxış” mövzusunda elmi-praktik seminar baş tutub. Seminarda Mərkəzi Gömrük Hospitalının damar cərrahı Səbuhi Dadaşov geniş təqdimatla çıxış edərək rezidentlərə aşağıdakı mövzular barədə ətraflı məlumat verib: aorta-bifemoral şuntlama, periferik arteriyaların autovenoz və ya süni damar ilə şuntlanması, fleboloji əməliyyatlar (klassik flebektomiya, endovenoz ablasiya – radiofrekans və lazer üsulları, miniflebektomiya), damar zədələnmələri zamanı anatomik strukturların bərpası və digər vacib müdaxilələr. Seminarın sonunda rezidentlərin çoxsaylı sualları cavablandırılıb, elmi müzakirələr aparılıb və fikir mübadiləsi həyata keçirilib.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500